# 5-ci maddə. Kazuslar

Hazırladı: Lilian Apostol

2017

# Kazus 1. Saxlama müddəti.

- Saat 15.30-da Ərizəçi korrupsiya əleyhinə mübarizə idarəsinin əməkdaşları tərəfindən küçədə saxlanılmış və saat 18.30-a qədər onun üstündə axtarış aparılmışdır. Bu zaman işarələnmiş pullar tapılıb. O, istintaq idarəsinə aparılmış və saat 20.30-da onun həbsi ilə bağlı protokol tərtib edilmiş və orada onun faktiki olaraq saat saat 18.30-da həbs edildiyi yazılmışdır.
- Hakimin qarşısına çıxarılarkən ərizəçi şikayət etmişdir ki, əslində o, həbs protokolunda yazıldığı kimi saat 18.30-da deyil, saat 15.30-da azadlıqdan məhrum edilmişdir (əməkdaşlar tərəfindən saxlandığı andan etibarən). Lakin, hakim müəyyən etmişdir ki, onun ustündə aparılan axtarış və onunla bağlı edilən hərəkətlər saat 15.30-dan 18.25-ə qədər davam etmişdir. Prokuror izah etmişdir ki, yalnız axtarışın nəticəsi məlum olduqdan sonra saat 18.30-da ərizəçinin həbs edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Hakim müəyyən etmişdir ki, saat 18.30-a qədər ərizəçi azadlığından məhrum edilmiş hesab edilmirdi, baxmayaraq ki, axtarış zamanı müstəntiqin onun çıxıb getməsinə və digər şəxslərlə ünsiyyət qurmasına icazə verməmək hüququ var idi.

# Kazus 1. Saxlama müddəti.

- Ərizəçi azadlığından nə vaxt məhrum edilmişdi?

1. Saat 15:30-da, çünki üzərində axtarış aparılan zaman ona həmin yeri tərk etmək məhdudiyyəti tətbiq edilmişdi
2. Saat 18:30-da, çünki həbs və üzərində axtarış aparılması biri digərindən sonra gələn iki ayrı istintaq hərəkətidir

# Kazus 1. Saxlama müddəti.

- Ölkədaxili qanunda aydın şəkildə nəzərdə tutulub ki, həbs protokoluna azadlıqdan məhrum etmənin faktiki vaxti daxil edilməlidir. 3 saat ərzində ərizəçinin üstündə aparılan axtarış azadlıqdan məhrum etmə idimi ?

1. Bəli, çünki qanuna müvafiq olaraq müstəntiq həmin yeri tərk etməməyi əmr edə bilər, lakin bu yuxarıda qeyd olunan qanuna görə faktiki azadlıqdan məhrum edilmə hesab edilmir
2. Xeyr, çünki faktiki (de facto) azadlıqdan məhrum edilmə kontekstdən asılı olmayan ümumi konseptdir və buraya digər istintaq hərəkətləri zamanı həyata keçirilən məhrumetmələr də daxildir

# Kazus 2. Qanunilik

- Konstitusiyada qeyd olunur ki, ‘Məhkəməyəqədər saxlama müddəti yalnız məhkəmə tərəfindən qanuna müvafiq olaraq ən çox 12 aya qədər uzadıla bilər.”
- Cinayət Prosessual Məcəlləsində, digər məsələlərlə yanaşı qeyd olunur ki, məhkəməyəqədər saxlama müddəti
  - Şübhəli bilinən şəxs cəzası 25 ilə qədər azadlıqdan məhrum edilmə olan cinayət əməli törədilməsində ittiham olunursa… **istintaq mərhələsi zamanı** … azadlıqdan məhrum etmə 12 aydan çox olmamalıdır, və
  - “… Şübhəli bilinən şəxs cəzası 25 ilə qədər azadlıqdan məhrum edilmə olan cinayət əməli törədilməsində ittiham olunursa… **məhkəmə baxışı zamanı** … azadlıqdan məhrum etmə 12 aydan çox olmamalıdır.”
- Ərizəçi birinci instansiya məhkəməsi tərəfindən məhkum edilənə qədər istintaq mərhələsi zamanı 9 ay və məhkəmə baxışı zamanı 5 ay həbsdə qalmışdır.

# Kazus 2. Qanunilik

- Konstitusiyaya zidd olaraq 12 aydan çox davam etdiyinə görə azadlıqdan məhrumetmə qanunsuz olubmu?

1. Bəli, qanunsuz olub, çünki Konstitusiyanın müddəaları (istintaq və məhkəmə baxışı mərhələləri arasında fərq qoymadan) Cinayət Prosessual Məcəlləsindən üstündür.
2. Xeyr, qanuni olub, çünki Konstitutsiyada ümumi müddəalar nəzərdə tutulub, Cinayət Prosessual Məcəlləsi isə ayrı-ayrılıqda hər bir mərhələ üçün (istintaq və məhkəmə baxışı) 12 ay nəzərdə tuta bilər.

# Kazus 2. Qanunilik

- Fərz edin ki, ərizəçi cəzasından şikayət verib. Əgər onun həbsi Konstitusiyada nəzərdə tutulmuş 12 aylıq müddəti ötübsə, bu həbs 5-ci Maddənin 1-ci bəndində nəzərdə tutulmuş əsaslara görə qanuni hesab ediləcəkmi ?

1. Bəli, çünki ərizəçi, barəsində qüvvəyə minmiş cəza ilə bağlı şikayət versə də, məhkum edildikdən sonra həbsdə qalacaqdır
2. Xeyr, çünki Konstitusiyada nəzərdə tutulmuş 12 aylıq məhdudiyyət Ali Məhkəmə tərəfindən məhkumluq ilə bağlı yekun qərar çıxana qədər olan bütün məhkəmə müddətlərinə şamil edilir

# Kazus 2. Qanunilik

- Fərz edin ki, ərizəçi məhkəməyəqədər saxlama qismində 9 ay həbsdə qalmış, daha sonra isə 5 ay ev dustaqlığına buraxılmışdır. Cinayət Posessual Məcəlləsində qeyd olunur ki, “saxlamanın hər iki növünə eyni şərtlər şamil edilməlidir”. Müddət konstitusiyada nəzərdə tutulmuş müddət limitini, yəni 12 ayı keçirmi və buna görə də saxlama qanunsuzdurmu?

1. Bəli, çünki Cinayət Prosessual Məcəlləsi saxlamanın bu növləri arasında fərq qoymur.
2. Xeyr, çünki ev dustaqlığı digər növdür və Konstitusiyada nəzərdə tutulmuş 12 aylıq müddət limiti  yalnız istintaq təcridxanasında saxlamağa şamil edilir.

# Kazus 3. Ağlabatan (əsaslı) şübhə

- Ərizəçi istintaq məlumatı əsasında həbs edilmişdi, orada deyilirdi ki, o, və digər 3 şəxs ərizəçinin adına olan etibarnaməni saxtalaşdıraraq dələduzluq törətmiş və zərərçəkmişi mənfəətli kommersiya şirkətinin səhmlərindən məhrum etmişdir. Bu "istintaq məlumatı" ərizəçi və 3 digər şəxs əleyhinə şikayət vermiş zərərçəkmişin çinayətlə bağlı şikayətindən götürülmüşdü. Ərizəçi 3 ay təcridxanada saxlanmışdı və bu müddət 3 dəfə uzadılmışdı. Həbs müddəti hər dəfə uzadıldıqda o bildirmişdi ki, onun nə saxta etibarnamədə adının olması, nə də şirkətin səhmlərinin ötürülməsindən xəbəri olmamışdır. O, qeyd etmişdir ki, bu işdə heç bir ardıcıl ağlabatan şübhə yoxdur. Onun arqumentləri ilkin məlumatlara və zərərçəkmişin şikayətlərinə istinad edilərək rədd edilmişdir.
- Lakin, sərbəst buraxıldıqdan sonra ona məlum olmuşdur ki, onun saxlandığı 1-ci aydan sonra istintaq qurumu müəyyən etmişdir ki, zərərçəkmiş ötürülməsi iddia edilən səhmlərə sahib olmamış və "əməliyyat" bütövlükdə zərərçəkmiş və digər 3 şəxsdən birinin sığortadan faydalanmaq üçün qurduğu dələduzluğa bənzəyir. İstintaq qurumunun onu həbsdə saxlamasının məqsədi zərərçəkmişin kiminlə birlikdə hərəkət etdiyini müəyyən etməkdən və onların hər ikisini sığorta şirkətində cinayət üstündə yaxalamaqdan ibarət olmuşdur. Ərizəçinin sərbəst buraxılması onları xəbərdar edə bilər və bütövlükdə əməliyyatı təhlükə altına ala bilərdi. İstənilən halda, sərbəst buraxıldıdqdan sonra ərizəçi dələduzluqda deyil, etibarnaməni saxtalaşdırmaqda təqsirli bilinirdi.

# Kazus 3. Ağlabatan şübhə

- Ərizəçi ağlabatan şübhə əsasında həbs edilmişdimi ?

1. Xeyr, çünki ona qarşı aparılan cinayət istintaqı bütövlükdə qüsurlu olmuşdur, belə ki, zərərçəkmiş yalan ifadə vermiş və bununla da “istintaq məlumatı” səhv olmuşdur.
2. Bəli, çünki yalnız əməli törədənlər həbs edildikdən sonra ona qarşı “ağlabatan şübhəyə” son qoyulmuş və o, sərbəst buraxılmışdır
3. Xeyr, çünki başlanğıcdan etibarən o, dələduzluqda deyil, sənədlərin saxtalaşdırılmasında şübhəli bilinməli idi
4. Bəli, xüsusilə birinci ay ərzində, istintaq qurumu onun dələduzluqda deyil, sənədlərin saxtalaşdırılmasında şübhəli bilindiyini müəyyən edənə qədər

# Kazus 3. Ağlabatan şübhə

- Fərz edin ki, ərizəçi ilə birlikdə yerdə qalan 3 nəfər də həbs edilib. Onların hamısı bildirib ki, sənədlərin saxtalaşdırılmasının və zərərçəkmişə dəyən zərərin əsil müəllifi ərizəçidir. Lakin, birinci aydan sonra onlar ifadələrini dəyişdiriblər. Bu ərizəçiyə qarşı olan ağlabatan şübhəni dəyişdirirmi ?

1. Xeyr, həm-şübhəlilər tərəfindən verilən ilkin ifadənin geri çəkilməsi ilkin ağlabatan şübhəyə təsir etmir, belə ki, həmin şübhə faktlara söykənirdi.
2. Bəli, qanuni olması üçün ilkin şübhə saxlamanın bütün müddəti zamanı mövcud olmalıdır